Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2024-cü il
“ 18 ” dekabr tarixli
528 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**3 nömrəli əlavə**

**Bazar monitorinqinin nəticələrinə dair aktın tərtib edilməsi**

**QAYDASI**

## 1. Ümumi müddəa

Bu Qayda Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinin (bundan sonra – Məcəllə) 44.3-cü maddəsində uyğun olaraq hazırlanmışdır və rəqabət orqanı tərəfindən həyata keçirilən monitorinqin nəticəsində monitorinqin nəticələrinə dair aktın tərtib edilməsi qaydalarını müəyyən edir.

## 2. Aktın hazırlanması qaydası

2.1. Kağız daşıyıcıda və ya elektron formatda doldurulmasından asılı olmayaraq məlumatlar formaya daxil edilməklə tərtib olunur.

2.2. Akt formasının yuxarı hissəsində aktın nömrəsi qeyd edilir.

2.3. Ardıcıllıq gözlənilməklə monitorinqin aparıldığı inzibati ərazi vahidi (bölgə, şəhər, rayon, qəsəbə, kənd) və monitorinqin təşkil oldunduğu tarix, gün, ay, il ardıcıllığı ilə “DD-MM-YYYY” formatında qeyd edilir. Monitorinq bir bazar subyektinin bir neçə ünvanında aparılarsa bu zaman hər ünvan üçün ayrıca akt tərtib edilir.

2.4. Aktda aşağıdakı məlumatlar əks etdirilir:

2.4.1. monitorinqi həyata keçirən vəzifəli şəxsin vəzifəsi, adı, atasının adı və soyadı;

2.4.2. monitorinqin həyata keçirildiyi məhsul bazarının adı (araşdırılma aparıldığı ünvan).

2.5. Bazar subyekti tərəfindən rəqabət qanunvericiliyinə əməl olunub və olunmaması vəziyyəti ilə bağlı aşkar olunmuş qanun pozuntularının məzmunu, tələbləri pozulmuş normativ hüquqi aktların konkret struktur elementi qeyd edilir.

2.6. Monitorinqin nəticəsində aktda “Rəqabət orqanının qərarı əsasında bazarın monitorinqinin aparılması Qaydası”nın 8.3-cü bəndində göstərilən qərarlardan birinin qəbul edilməsi barədə təklif qeyd olunur.

2.7. Monitorinqin nəticəsi olaraq hazırlanmış arayış və toplanmış materiallar akta əlavə edilir, o cümlədən aparılmış araşdırmaya dair arayışa uyğun olaraq müvafiq aktda sənəd və məlumatların adı, vərəq sayı qeyd edilir.

2.8. Sonda monitorinqi aparan şəxslərin və monitorinqdə iştirak edən digər şəxslərin imzası, soyadı, adı, atasının adı qeyd edilir.